# Müasir və demokratik meyarlara cavab verən məhkəmə-hüquq sistemi

**Bu günlərdə müasir Azərbaycanın dövlətçilik tarixinin ən parlaq səhifələrindən biri yazıldı. Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin iradəsi, qətiyyəti və şanlı ordumuzun qəhrəmanlığı sayəsində 30 ilə yaxındır işğal altında olan torpaqlarımızın böyük qismi cəmi 44 günə azad edildi. Noyabr ayının 10-da isə işğalçı Ermənistanın rəhbərliyi möhtərəm İlham Əliyevin şərtlərinin yer aldığı bəyanata imza atmağa məcbur edildi.**

Bu bəyanat bütün dünyada Ermənistanın kapitulyasiyası kimi qəbul edildi. Sənədə müvafiq olaraq darmadağın edilmiş işğalçı qoşunun qalıqları noyabrın 20-dək Ağdam, noyabrın 25-dək Kəlbəcər, dekabrın 1-dək isə Laçın rayonunu tərk edəcəklər. Beləliklə, noyabr ayının birinci ongünlüyündən, xüsusən Şuşanın azad edilməsindən sonra xalqımız həsrətlə gözlədiyi böyük Qələbənin sevincini yaşayır. Böyükdən kiçiyə qədər hər kəs, vəzifəsindən, əqidəsindən, sosial statusundan asılı olmayaraq hər bir azərbaycanlı indi özünü daha qürurlu, daha mətin hiss edir. Biz qalib bir xalqın nümayəndələri olmağımızla, torpaqlarımızı hünər meydanında azad etməyimizlə fəxr edirik, öyünürük, iftixar hissi duyuruq.

Ədliyyə işçiləri üçün isə bu günlər ikiqat bayramdır. Ədliyyə işçilərinin peşə bayramı günü xalqımızın qələbə sevincini yaşadığı bu günlərə təsadüf edir. 102 il əvvəl - noyabr ayının 22-də Xalq Cümhuriyyətinin qərarı ilə Ədliyyə Nazirliyinin Əsasnaməsi təsdiq edildikdən sonra Azərbaycan ədliyyəsinin şərəfli tarixi başlamışdır. Ulu öndər Heydər Əliyevin 11 noyabr 2000-ci il tarixli sərəncamı ilə 1918-ci ildə Azərbaycan Xalq Cümhuriyyəti Ədliyyə Nazirliyinin Əsasnaməsinin təsdiq edildiyi gün - 22 noyabr Ədliyyə işçilərinin peşə bayramı günü kimi müəyyən olunmuşdur.

1918-ci ildə Azərbaycan çarizmin əsarətindən xilas olduqdan və müstəqilliyinə qovuşduqdan sonra dövlət orqanları obyektiv səbəblərdən ya dağılmış, ya da fəaliyyətini dayandırmışdı. Belə bir vəziyyətdə Cümhuriyyətin qarşısında İstiqlal Bəyannaməsinin müddəalarına uyğun olaraq dövlətin əsaslarının yaradılması kimi məsul bir vəzifə dayanırdı. Dövrün çətinliklərinə, istiqlalımız üçün təhlükələrə baxmayaraq, Xalq Cümhuriyyəti bu gün də xalqımızın tarixində böyük iz buraxan yaddaqalan işlər görə bilmişdi.

Müasir Azərbaycan məhkəmələrinin də əsası Xalq Cümhuriyyəti tərəfindən qoyulmuşdur. Qeyd etdiyimiz kimi, çarizm əsarətindən xilas olduqdan sonra dövlət orqanlarının fəaliyyətində ciddi böhran yaranmışdı. O cümlədən məhkəmə sistemi dağınıq, pərakəndə və iflic vəziyyətində idi. Şəhər və qəzaların əksəriyyətində kadrlar çatışmırdı və bu səbəbdən bir çox yerlərdə məhkəmələrin fəaliyyəti dayanmışdı. Bu baxımdan Xalq Cümhuriyyətinin atdığı ilk addımlar sırasında məhkəmələrin fəaliyyətinin nizama salınması, ədalət mühakiməsinin təmin edilməsi üçün hüquqi islahatların həyata keçirilməsi diqqəti çəkir. Həmin dövrdə respublikada qanunçuluğun təmin olunması ilə əlaqədar məhkəmə aparatları bərpa edilmiş, hüquqşünas kadrların hazırlanması və əhalinin hüquqi maarifləndirilməsi məqsədilə hüquq kursları təşkil edilmişdi.

Bakının işğaldan azad edilməsindən sonra Gəncədən köçən Nazirlər Şurasının ilk qərarları da məhz məhkəmələrlə bağlı olmuşdu. 1918-ci il oktyabr ayının 1-də Bakı Dairə Məhkəməsinin və onun tərkibində prokurorluğun fəaliyyəti bərpa edilmiş, Məhkəmə Palatasının təsis edilməsinin labüdlüyü nəzərə alınaraq noyabr ayının 14-də Azərbaycan Məhkəmə Palatasının Əsasnaməsi təsdiq olunmuşdu. Beləliklə, bütün bunların nəticəsində Azərbaycanda müasir məhkəmə sisteminin təməli qoyulmuşdu. Azərbaycan Məhkəmə Palatası Mülki və Cinayət departamentlərindən ibarət idi. Palatanın yurisdiksiya dairəsi isə respublikanın bütün ərazisini əhatə edirdi. Məhkəmə Palatası həm də respublikanın dairə məhkəmələri və bu məhkəmə dairələrindəki barışıq şöbələri üçün ikinci instansiya (apelyasiya) məhkəməsi sayılırdı.

Azərbaycan xalqı 1991-ci ildə yenidən dövlət müstəqilliyini bərpa etdikdən sonra da qarşıda duran vəzifələrdən biri sovet dövründən miras qalmış hüquq sisteminin müasir dövrün tələblərinə uyğunlaşdırılması idi. Lakin ilk illərdə yeni dövrün tələblərinə uyğun dövlət quruculuğu prosesi baş vermədiyi üçün hüquqi islahatlar da aparılmadı. Yalnız görkəmli dövlət xadimi, ulu öndər Heydər Əliyevin 1993-cü ildə hakimiyyətə gəlişindən sonra dövlət quruculuğunun əsas tərkib hissələrindən biri kimi ölkənin hüquq sisteminin yenilənməsi istiqamətində köklü islahatlara start verildi. Bir neçə gün əvvəl qəbul edilməsinin 25 ili tamam olan müstəqil Azərbaycanın Konstitusiyasında ilk dəfə olaraq Məhkəmə Hakimiyyəti anlayışı öz əksini tapmışdır. Konstitusiyaya əsasən, respublikamızda məhkəmə hakimiyyətini ədalət mühakiməsi yolu ilə yalnız məhkəmələr həyata keçirir. Məhkəmə hakimiyyətinə verilmiş yeni səlahiyyətlər nəzərə alınmaqla ölkə tarixində ilk dəfə olaraq Əsas Qanunda hakimlərin sərbəstliyi və müstəqilliyinin vacib təminatı - onların dəyişməzliyi prinsipləri reallaşmışdır. Bu gün respublikamızda məhkəmə hakimiyyətinin demokratikliyi, fəaliyyəti ilə bağlı əsas hüquqi prinsiplər Konstitusiyada öz əksini tapmış bünövrədən irəli gəlir.

Demokratik təcrübə göstərir ki, zamanın çağırışlarına cavab verən hüquqi dəyişikliklərin həyata keçirilməsi, xüsusən daha mütərəqqi ədalət mühakiməsinin təmin olunması naminə islahatların reallaşdırılması hüquqi dövlətçiliyin fundamental prinsiplərindən biridir. İnkarolunmaz faktdır ki, demokratik idarəetmə meyarlarının dövlət həyatının bütün sahələrində bərqərar olması müasir tələblərə cavab verən hüquq mexanizmlərinin yaradılmasından əhəmiyyətli dərəcədə asılıdır. 2004-cü ildən başlayaraq müxtəlif illərdə Prezident İlham Əliyevin təşəbbüsləri ilə həyata keçirilən məhkəmə-hüquq islahatları məhz bundan irəli gəlmişdir. Bu islahatların nəticəsində 2004-cü ildən başlayaraq respublikamızın məhkəmə sistemi bütün göstəricilər baxımından tamamilə yenilənərək, ən müasir standartlara tam uyğunlaşdırılmışdır. Aparılan islahatlar nəticəsində yeni təsisat - məhkəmə hakimiyyətinin özünüidarə orqanı olan Məhkəmə-Hüquq Şurası təşkil olunmuşdur. Hakimlərin ilkin və davamlı tədrisinin təşkili, fəaliyyətinin qiymətləndirilməsi, iş yerinin dəyişdirilməsi, vəzifədə irəli çəkilməsi, intizam məsuliyyətinə cəlb edilməsi və onların fəaliyyəti ilə bağlı digər məsələlər bu orqanın səlahiyyətinə aid edilmişdir.

Məhkəməyə əlçatanlığın məhkəmə sisteminin quruluşundan, xüsusilə ixtisaslaşdırılmış və regional məhkəmələrin fəaliyyətindən əhəmiyyətli dərəcədə asılı olduğu nəzərə alınaraq, ölkə başçısı cənab İlham Əliyev tərəfindən məhkəmə sisteminin müasirləşdirilməsi ilə bağlı imzalanmış 19 yanvar 2006-cı il və 15 iyul 2010-cu il tarixli fərmanlarla bu sahədə institusional islahatlar davam etdirilmişdir. Bu qərarlar respublikamızın məhkəmə sisteminin müasirləşməsi və təkmilləşdirilməsi prosesində mühüm addımlar olmuşdur.

Məhkəmə-hüquq islahatları çərçivəsində ədliyyə və məhkəmə fəaliyyətinin müasirləşdirilməsinə, əhalinin müraciət imkanlarının asanlaşdırılmasına xüsusi diqqət yetirilir, bu məqsədlə müasir infrastruktur yaradılır. Son illər paytaxtda və bölgələrdə müasirliyi ilə fərqlənən və ən son informasiya-kommunikasiya texnologiyaları ilə təchiz olunmuş yeni məhkəmə bina və kompleksləri tikilib istifadəyə verilmişdir.

2019-cu il respublikamızın siyasi və iqtisadi həyatında həqiqətən dərin islahatlar dövrü kimi yadda qaldı. Eyni zamanda ötən il aprelin 3-də dövlət başçısının imzaladığı "Məhkəmə-hüquq sistemində islahatların dərinləşdirilməsi haqqında" Fərmanla bu islahatlar həm də məhkəmə-hüquq sistemini də əhatə etmişdir. Ötən müddətdə Fərmanın icrası istiqamətində əhəmiyyətli işlərin görülməsi nəticəsində məhkəmə-hüquq sisteminin fəaliyyətində yeni keyfiyyət mərhələsi başlamışdır. Birmənalı şəkildə deyə bilərik ki, həyata keçirilən bütün tədbirlərin nəticəsində məhkəmə-hüquq sisteminin bütün sahələrində fəaliyyət ən müasir tələb və çağırışlara uyğun olaraq təkmilləşdirilir. Nəticə etibarilə bütün bunlar Azərbaycanın daha da inkişafına, modernləşməsinə və vətəndaş məmnunluğuna xidmət edir. Fərmandan irəli gələrək Bakı, Naxçıvan, Gəncə, Sumqayıt, Şirvan və Şəki şəhərlərində inzibati və kommersiya məhkəmələrinin yaradılması, buna qədər fəaliyyət göstərən Naxçıvan, 1 saylı Bakı, 2 saylı Bakı, Gəncə, Sumqayıt, Şirvan, Şəki inzibati-iqtisadi məhkəmələrinin ləğvi ədalət mühakiməsinin həyata keçirilməsi yolunda mütərəqqi addımlardır.

Bütövlükdə, ötən 17 ildə Prezident İlham Əliyevin rəhbərliyi ilə respublikamız daha da inkişaf etmişdir. Bu inkişafa uyğun olaraq dövlətin hüquq sistemi də yenilənmiş, öz fəaliyyətini yeni hüquqi münasibətlərə uyğun olaraq təkmilləşdirmişdir. Ədliyyə sisteminin inkişafı və müstəqil məhkəmə hakimiyyətinin daha da gücləndirilməsi üzrə mühüm addımlar atılmışdır. Qeyd etdiyimiz kimi, məhkəmə-hüquq islahatları çərçivəsində əhalinin müraciət imkanlarının asanlaşdırılmasına xüsusi diqqət yetirilmiş, bu məqsədlə müasir infrastruktur yaradılmışdır. O cümlədən yeni nəsil hakim korpusu formalaşdırılmışdır. Bütün bunlar ədalət mühakiməsinin effektiv həyata keçirilməsinə, vətəndaşların məhkəmələrə müraciət imkanlarının asanlaşdırılmasına, keyfiyyətli xidmətlərin göstərilməsinə öz müsbət təsirini göstərmişdir.

Qarşıda isə torpaqlarımızın işğaldan azad edilməsi ilə əlaqədar olaraq Azərbaycanın hüquq sistemini, o cümlədən məhkəmələri yeni və məsul vəzifələr gözləyir. Əminik ki, məhkəmələr və digər dövlət orqanları bu vəzifələrin öhdəsindən layiqincə və şərəflə gələcəklər.

**Sevinc QULİYEVA,**
**Abşeron Rayon Məhkəməsinin hakimi.**

# Ədliyyə işçiləri öz peşə bayramlarını Qələbə günü ilə birlikdə qeyd edirlər

**Ötən əsrin əvvəllərində dünyada gedən qarşısıalınmaz ictimai-siyasi proseslər, xüsusən, çarizmin süqutu nəticəsində yaranan müstəqil dövlətlərin hər biri özünəməxsus yol tutmuşdur. 1918-ci il mayın 28-də elan edilmiş Azərbaycan Xalq Cümhuriyyəti isə müsəlman Şərqində ilk demokratik respublika olaraq sivil, dünyəvi dövlət quruculuğu yolunu seçmişdi. Həmçinin, ədliyyə orqanları və məhkəmə fəaliyyəti ilə bağlı bir sıra qərarlar qəbul edilmiş, o cümlədən 1918-ci il noyabr ayının 14-də Azərbaycan Məhkəmə Palatasının Əsasnaməsi, noyabrın 22-də isə Ədliyyə Nazirliyinin Əsasnaməsi təsdiq edilmişdir. Təsadüfi deyil ki, ilk müstəqil dövlətimizin Nazirlər Şurasının sədri Fətəli xan Xoyski ədliyyə orqanlarının dövlətçiliyin inkişafındakı vacib rolunu belə təsvir etmişdir. Məlum hadisələrdən və Azərbaycan SSR-in yaradılmasından sonra sovet imperiyasının hər yerində olduğu kimi, Azərbaycan ədliyyə sistemi də çox ciddi məhdudiyyətlərlə fəaliyyət göstərirdi. 1933-cü ildə yaradılan Ədliyyə Nazirliyi dörd il sonra çox cüzi səlahiyyətləri olan bir quruma çevirildi. 1957-ci ildə isə tamamilə ləğv edildi.**

Ədliyyə Nazirliyinin yenidən və əsaslı surətdə təsis edilməsi ümummilli lider Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi dövrə təsadüf edir. Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin 27 oktyabr 1970-ci il tarixli qərarı ilə Ədliyyə Nazirliyi təsis olunaraq onun sabit fəaliyyəti təmin edilmiş, nazirlik məhkəmə orqanlarına təşkilati rəhbərliyi həyata keçirmiş, əhaliyə hüquqi yardımı yaxşılaşdırmış, notariat fəaliyyətinin və məhkəmə ekspertizaların aparılmasını təmin edib, ümumiyyətlə, ədliyyə işi təkmilləşdirilərək onun gələcək inkişafı üçün əlverişli zəmin yaranmışdır. Azərbaycan öz dövlət müstəqilliyini yenidən bərpa etdikdən və ümummilli lider Heydər Əliyev 1993-cü ildə hakimiyyətə qayıtdıqdan sonra Azərbaycan Ədliyyəsinin həyatında əsaslı dövr başlandı. Ulu öndərin rəhbərliyi ilə ədliyyə sisteminin inkişafını təmin edən ardıcıl və məqsədyönlü islahatlar həyata keçirilmiş, nazirliyin səlahiyyətləri genişlənmiş, cəmiyyətdə rolu artmışdır. Müstəqillik illərində ədliyyə və məhkəmə-hüquq sisteminin inkişafına müstəsna əhəmiyyət verən ümummilli lider Heydər Əliyevin təşəbbüsü və bilavasitə rəhbərliyi ilə yeni milli Konstitusiya qəbul olunmuş, hüquqi sahədə islahatların mütəşəkkil qaydada aparılması məqsədilə Hüquqi İslahat Komissiyası yaradılmış, qısa müddət ərzində mühüm qanunlar qəbul edilmiş, məhkəmə və hüquq-mühafizə orqanlarının funksiya və səlahiyyətlərinə yenidən baxılmışdır. Ümummilli lider Heydər Əliyev Azərbaycan Ədliyyəsinə daim xüsusi diqqət və böyük qayğının təzahürü olaraq 11 noyabr 2000-ci il tarixdə imzaladığı Sərəncamla Ədliyyə Nazirliyinin Əsasnaməsinin təsdiq edildiyi gün - 22 noyabr Azərbaycan Respublikası Ədliyyə işçilərinin peşə bayramı günü kimi təsis edilmişdir.

Ədliyyə sistemində də fəaliyyətin yüksək tələblər səviyyəsində qurulması üzrə xidmətləri öz bəhrəsini bu gün də verməkdədir. Onun başladığı köklü islahatların nəticəsidir ki, müasir Azərbaycan ədliyyəsinin inkişafı davamlı prosesə çevrilmişdir. Həyata keçirilən səmərəli hüquqi islahatlar kursu Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən hazırda uğurla davam etdirilir. Qısa dövr ərzində onun tərəfindən imzalanan fərman və sərəncamlar ölkəmizin dinamik yüksəlişi təmin etmiş və həyata keçirilən islahatlara yeni təkan vermişdir.

Bu baxımdan "Penitensiar sahədə fəaliyyətin təkmilləşdirilməsi, cəza siyasətinin humanistləşdirilməsi və cəmiyyətdən təcridetmə ilə əlaqədar olmayan alternativ cəza və prosessual məcburiyyət tədbirlərinin tətbiqinin genişləndirilməsi barədə" 10 fevral 2017-ci il tarixdə Azərbaycan Respublikasının Prezidenti tərəfindən imzalanmış Sərəncam da insan hüquqlarının effektiv təmini istiqamətində həyata keçirilən islahatların davamlılığı baxımından yeni mərhələ oldu. Cinayət törətmiş, hüquq pozuntusuna yol vermiş şəxsin azadlıq hüququ ilə bağlı məhdudiyyətlərin tətbiq edilməsinin məhdudlaşdırılması, bu istiqamətdə cinayət tətbiqi və cəza icra siyasətinin humanistləşdirilməsi, şəxsin cəmiyyətdən təcrid edilməsi təcrübəsinə daha diqqətli, habelə ehtiyatla yanaşması zəruriyyəti məlum Sərəncam əsasında önə çəkilməklə yanaşı, icrası da dövlətin siyasətinin tərkib elementinə çevrildi.

Azərbaycan Respublikası Prezidentinin proqram xarakterli bu Sərəncamından irəli gələn vəzifələrini dürüst və mütəşəkkil icrası məqsədilə ötən dövrdə Ədliyyə Nazirliyi tərəfindən kompleks tədbirlər görülmüş, o cümlədən aidiyyəti qurumlarla birgə işçi qrupu yaradılaraq beynəlxalq təcrübə öyrənilməklə bu sahədə qanunvericilik və məhkəmə-istintaq təcrübəsi təhlil olunmuş, cəza siyasətinin humanistləşdirilməsi, elektron nəzarət vasitələrinin tətbiqi ilə bağlı qanunvericilik aktlarına mühüm dəyişikliklər edilmişdir.

Bu gün ədliyyə sahəsində elektron xidmətlərin, müasir texnologiyaların və innovasiyaların tətbiqinə xüsusi diqqət yetirilir. Belə ki, cəzaların icrası zamanı müasir informasiya-kommunikasiya texnologiyalarından istifadə edilməsini təmin etmək məqsədilə məhkumlara elektron nəzarət vasitələrinin tətbiqi geniş vüsət almışdır. Bu innovasiyalar qısa müddət ərzində tətbiq edilməsinə baxmayaraq, artıq beynəlxalq marağa səbəb olmuş və Azərbaycanın innovativ məhsullarından digər dövlətlər də bəhrələnir.

Möhtərəm Prezidentimiz cənab İlham Əliyev ölkəmizin davamlı inkişafı ilə yanaşı, vətəndaşlarımızın da daim hüquqlarının təmin edilməsinə çalışır. Bütün beynəlxalq tədbirlər, çıxışlar və ikitərəfli görüşlərdə xalqımızın ən ağır problemi olan Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi və onun ədalətli həllinə dair dövlətimizin haqlı mövqeyi diqqətə çatdırılıb. Ermənistan-Azərbaycan münaqişəsi XX yüzilliyinin tarixinə ən faciəli münaqişələrdən biri kimi daxil olub, onun nəticələri milyonlarla azərbaycanlının taleyinə ciddi təsir göstərib. 1980-ci illərin sonlarında Ermənistan Azərbaycanın tarixi torpaqlarında açıq formada ərazi iddialarını və etnik zəmində təxribatları, terror əməlləri ilə başlanmış bu münaqişə Azərbaycana qarşı hərbi təcavüzlə nəticələnib.

Ümummilli lider Heydər Əliyevin hakimiyyətə gəlməsi ilə bu münaqişənin həllində 1993-cü ildən ötən dövr ərzində böyük əziyyətlər hesabına əldə edilən nailiyyətlər, qazanılan uğurlar zərrə-zərrə bizi möhtəşəm qələbəyə yaxınlaşdırdı. 2003-cü ildən sonrakı mərhələdə İlham Əliyevin diplomatiyasının apardığı fəal iş Azərbaycanın haqlı mövqeyinin beynəlxalq hüquqi əsaslarını daha da möhkəmləndirdi.

Təcavüzkar Ermənistan silahlı qüvvələrinin bu il sentyabr ayının 27-dən başlayan növbəti hərbi təxribatına layiqli cavab verən və bütün cəbhəboyu genişmiqyaslı uğurlu hərbi əməliyyatlar keçirən Azərbaycan Ordusunun Qarabağ uğrunda apardığı Vətən müharibəsində göstərdiyi böyük igidliklər, şücaət xalqımızda tezliklə düşmən üzərində tam və qəti qələbəmizin təmin ediləcəyinə möhkəm inam və əminlik yaratmışdı. Azərbaycan Ordusunun igid, cəsur əsgər və zabitlərinin əzəli tarixi yurd yerlərimizi bir-birinin ardınca erməni işğalından azad etməsi, geri qaytarılan yurd yerlərimizdə müqəddəs üçrəngli dövlət bayrağımızın dalğalanması xalqımızın bu inam və əminliyini daha da artırırdı. Rayon və qəsəbələrimizin, kəndlərimizin işğaldan azad edilməsi xalqımıza böyük sevinc hissi, yüksək əhval-ruhiyyə yaşadırdı. Noyabr ayının 8-də Azərbaycanın milli rəmzi hesab olunan Şuşanın işğaldan azad edilməsi isə xalqımızın apardığı ədalətli, müqəddəs və şərəfli Vətən müharibəsində əsaslı dönüş nöqtəsi oldu. Belə ki, Dağlıq Qarabağın strateji şəhəri olan Şuşanın işğaldan azad edilməsi erməni silahlı qüvvələrinin Azərbaycan Ordusunun hücumlardan müdafiə olunması perspektivlərini heçə endirdi. Çünki hərbi nöqteyi-nəzərdən Şuşa Qarabağın açarı hesab edilir. Şuşanın azad edilməsi Azərbaycana Xankəndinə tam nəzarət etmək və bütövlükdə Dağlıq Qarabağ münaqişəsində öz mövqeyini daha da gücləndirmək imkanı verdi. Noyabrın 9-da isə 72 kəndin və bir neçə strateji yüksəkliyin işğaldan azad edilməsi qələbəmizi daha da yaxınlaşdırdı. Artıq çox miskin, aciz və rəzil vəziyyətə düşmüş Ermənistanın öz hərbi məğlubiyyətini qəbul etməkdən başqa çıxış yolu qalmamışdı. Noyabrın 10-da Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrimizin Müzəffər Ali Baş Komandanı cənab İlham Əliyev, Ermənistan Respublikasının baş naziri Nikol Paşinyan və Rusiya Federasiyasının Prezidenti Vladimir Putin atəşkəsin elan edilməsi və hərbi əməliyyatların dayandırılması haqqında üçtərəfli qaydada Bəyanat imzaladılar. Bu Bəyanatın imzalanması Azərbaycanın Ermənistan üzərində şanlı Qələbəsini hüquqi cəhətdən tam rəsmiləşdirdi. Noyabrın 10-nu xalqımızın tarixinə şanlı Qələbə Günü kimi daxil oldu.

İşğalçı və təcavüzkar Ermənistan üzərində bu böyük tarixi qələbənin qazanılmasında Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrimizin Müzəffər Ali Baş Komandanı cənab İlham Əliyevin düşünülmüş, ardıcıl və məntiqi siyasəti, hərbi bacarığı, məharəti həlledici rol oynadı. Dövlət başçımız cənab İlham Əliyev Vətən müharibəsinin gedişində yalnız hərb meydanında qələbə qazanmadı. Ölkə Prezidenti müharibənin gedişində həm də düşmənlə informasiya mübarizəsinin mərkəzində dayanaraq Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi, eləcə də Vətən müharibəsində baş verən hadisələr, aparılan uğurlu hərbi əməliyyatlar, eyni zamanda Ermənistanın Azərbaycanın dinc mülki əhalisini terrora məruz qoymasını konkret faktlarla dünya ictimaiyyətinə çatdırdı və bu zaman öz siyasi hazırlığı, məntiqi düşüncəsi, əsas hədəfə istiqamətlənmiş açıqlamaları ilə diqqəti çəkdi. Cənab İlham Əliyev informasiya mübarizəsinin də qalibi oldu. Eyni zamanda Azərbaycan Ordusunun misilsiz qəhrəmanlığı, cəmiyyətdəki milli birlik, siyasi həmrəylik düşmən üzərində tam və qəti qələbənin təmin edilməsində böyük rol oynadı.

Azərbaycan ədliyyəsi qələbə ilə dolu zəfər günlərində sarsılmaz ordumuzla həmrəylik nümayiş etdirmişdir.

Ədliyyə işçiləri öz peşə bayramlarını böyük ruh yüksəkliyi, qələbə sevinc ilə qeyd etməklə yanaşı, ölkəmizə böyük qələbəni bəxş edən Ali Baş Komandanın ətrafında sıx birləşərək bundan sonra da ölkəmizin müasir inkişafına uyğun şəkildə öz vəzifələrini hər zaman layiqincə yerinə yetirmək, demokratik hüquqi dövlət quruculuğu, Azərbaycan ədliyyəsinin fəaliyyətinin təkmilləşdirilməsi naminə fədakarlıqla çalışmaq əzmindədirlər.

**Fariz ŞAMİLOV,**
**Azərbaycan Respublikası Ədliyyə Nazirliyi Probasiya Xidmətinin Elektron Monitorinq İdarəsinin böyük məsləhətçisi, kiçik ədliyyə müşaviri.**

# AZAL Bakı-Naxçıvan-Bakı marşrutu üzrə uçuşları bərpa edir

**19 noyabr tarixindən etibarən Azərbaycanın milli aviadaşıyıcısı (AZAL) Bakı-Naxçıvan-Bakı marşrutu üzrə uçuşları bərpa edir. Reyslər hər gün Bakıdan uçuş vaxtı saat 13:00, Naxçıvandan uçuş vaxtı isə saat 16:10-da həyata keçiriləcək.**



Hava gəmisinə COVİD-19 testi üzrə mənfi nəticə barədə arayış təqdim edən sərnişinlər buraxılacaq.

Pandemiya dövründə reyslərin sayının məhdud olduğunu və yüksək tələbatı nəzərə alaraq, qeyd edilən istiqamətdə aviabiletlərin satışı ardıcıllıq prinsipi ilə həyata keçirilir.

Növbəyə qeydiyyat iki üsulla - əks əlaqə forması üzrə və ya WhatsApp mesenceri vasitəsilə həyata keçirilir.

- Bakıdan Naxçıvana reyslər üçün:
• https://help.azal.az/hc/az/requests/new?ticket_form_id=360000853919
• WhatsApp: +99455 204 65 54
- Naxçıvandan Bakıya reyslər üçün:
• https://help.azal.az/hc/az/requests/new?ticket_form_id=360000886220
• WhatsApp: +994 60 487 30 11

Müraciət zamanı sərnişinlərdən şəxsiyyət vəsiqələrinin skan edilmiş surətlərini və geri əlaqə üçün əlaqə nömrələrini göndərmələri tələb olunacaq.

Aviaşirkət eyni zamanda onlayn forma və WhatsApp vasitəsilə müraciət etməməyinizi xahiş edir. Bu yalnız onlayn növbələrin artmasına və çağırış mərkəzinin işçiləri tərəfindən cavabların gecikdirilməsinə səbəb olacaq. Aviaşirkətin çağırış mərkəzinə zənglər vasitəsilə bu istiqamətdə aviabiletlər üçün sorğular qəbul edilmir.

Pandemiya dövründə təsdiq edilmiş qaydalara əsasən, əl yükü qismində yalnız qadın əl çantasının, kişi portfelinin və ya ölçüləri 30x35x10 sm-dən çox olmayan portativ kompüter çantasının (çanta yalnız təyinatı üzrə istifadə olunmalıdır) daşınmasına icazə verilir. Kağız və polietilen torbalar da daxil olmaqla, digər baqaj baqaj bölməsində qeydiyyatdan keçməlidir. Pulsuz daşınmasına icazə verilən baqajın icazə verilən maksimum çəkisi 23 kq-dır, ölçüləri üç ölçünün cəmində 158 sm-dən çox olmamalıdır.

**"Azərbaycan Hava Yolları" QSC-nin mətbuat xidməti.**

# Layihənin yekun tədbiri

"Ruzgar" Ekoloji İctimai Birliyi İmişli rayonunun Telişli kəndində Avropa İttifaqının maliyyələşdirdiyi icma kənd təsərrüfatı təşəbbüslərinə dəstək Layihəsinin yekun tədbirini keçirmişdir.



Tədbir COVİD-19 pandemiyası ilə bağlı bütün tələblərə əməl etməklə kiçik qruplarda həyata keçirilmişdir. Belə ki, xalçaçılıq sexi, Hələb keçiləri və balıqçılıq kooperativlərinin üzvləri üçün ayrı-ayrılıqda açıq hava toplantıları keçirilmişdir. Layihə komandası görülən işlərin yekunları haqqında danışmış, bu fəaliyyətlərdən potensial bəhrələnəcək icma nümayəndələri qarşıdakı görüləcək işlərdən bəhs etmişlər. Ekomiqrant icmasına çəkilən suvarma suyundan 30-a qədər ailə bəhrələnmiş, daha 40-a yaxın ailə öz pay torpaqlarını suvarmaq imkanları əldə etmişlər. Xalça sexində artıq ilk xalçalar toxunmuş və yekun tədbirində bu xalçalardan biri kəsilmişdir. Keçi fermasında heyvanların sayı 2 dəfədən çox artmış və satış üçün çıxarılmışdır. Yolüstü servis kooperativi tam təchiz olunmuş vəziyyətə gətirilmişdir və öz müştərilərini gözləyir.

COVİD-19 pandemiyası ilə bağlı olaraq fəaliyyəti məhdulaşdırılıb. Bütün kooperativlərin ərazisində yekun tədbir ağacəkmə aksiyası ilə başa çatmışdır. Bütün yaradılmış kooperativlərlə bərabər kənd məktəbinin həyətində də həmişəyaşıl və dekorativ ağaclar və kollar əkilmişdir. Bu tinglər Ekologiya və Təbii Sərvətlər Nazirliyi tərəfindən təmənnasız olaraq Layihəyə töhfə kimi verilmişdir. Yaşıllıqların suvarılması və becərilməsi üçün texniki imkanlar layihə büdcəsi hesabına yaradılmışdır.



Tədbirin bağlanışı açıq hava toplantısında Layihənin davamlılığının təmin edilməsi məsələlərinə həsr olunmuşdur. Tədbirdə Telişli bələdiyyəsinin sədri və qonşu Saatlı, Biləsuvar və Kürdəmir icmalarının da nümayəndələri iştirak etmişlər. Qazanılmış təcrübənin qonşu icmalarda istifadə olunması sahəsində informasiya və təcrübə mübadiləsi aparılmışdır.

**M.MİRZƏ,**
**"Respublika".**